**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SÖHRAB TAHİRİN YARADICILIĞI

İxtisas: 5716.01 - Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Nəzrin Asif qızı Rzayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Universitetinin "Azərbaycan dili və ədəbiyyat" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Əlizadə Bayram oğlu Əsgərli** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Vüqar Mikayıl oğlu Əhməd** |
| | filologiya elmləri doktoru, professor<br>**Xatirə Bədrəddin qızı Bəşirli** |
| | filologiya elmləri doktoru, dosent<br>**Leyla Kamran qızı Məmmədova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>__________________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi:<br>__________________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri:<br>__________________ | filologiya elmləri doktoru, professor<br>**Leyla Məcid qızı İmaməliyeva** |

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Həyatın insana bəxş etdiyi sevinc, məhəbbət, azad düşüncə tərzi Müasir Azərbaycan poeziyasının əsas motivlərini təşkil edir. Bu baxımdan ölkənin ən məhsuldar ədiblərindən biri olan Söhrab Tahir həm poeziyada, həm də nəsr sahəsində ədəbi-bədii nümunələr yaratmış, onun yaradıcılığında Bayrona xas olan kəskin sosial-siyasi etiraz, azadlıqsevərlik ruhu, milli ənənələrə və Azərbaycan cəmiyyətinin əhval-ruhiyyəsinə uyğun pafos poeziyasının əsasını təşkil edir. Ədəbiyyatın yeni istiqamətini müəyyənləşdirən 60-lar nəslinin nümayəndəsi olan S.Tahirin rəngarəng yaradıcılığının əsas mövzuları dövrün siyasi-ictimai fikrində xüsusi əhəmiyyət kəsb edən fərdi və ümumi azadlıq, milli birlik idi. O, təbiət mənzərələrindən, təkrarolunmaz peyzajdan, saf sevgidən, ülvi məhəbbətdən yazsa da, yaradıcılığının ana xəttini hürriyyət, müstəqillik uğrunda istibdada qarşı mübarizə motivləri təşkil edir.

Onun əsərlərinin əsas məzmununu Cənub mövzusu təşkil edir. Müəyyən məlum tarixi səbəblərə görə iki yerə parçalanmış və iki müxtəlif tərkibli multikultural təsirə məruz qalmış Azərbaycanın ictimai-siyasi, mənəvi-fəlsəfi problemləri cənub əsilli Söhrab Tahirin də yaradıcılığına birbaşa təsirini göstərmişdir. Şimali Azərbaycan Rusiya tərəfindən ilhaq olunandan sonra rus və rus mədəniyyəti vasitəsi ilə qərb mədəniyyətlərinin təsirinə məruz qalmış Cənubi Azərbaycan mədəniyyəti isə fars və Yaxın Şərq mədəniyyətinin təsiri altında formalaşmışdır.

Mədəniyyətin təşəkkülünün və inkişafının mühüm faktorları olan dil və din birliyi, habelə diaxron kəsimdə müştərək mədəni ənənələ Azərbaycan mədəniyyətinin homogenliyinin qarantı rolunda çıxış edirlər. Bu baxımdan Söhrab Tahir çoxsaylı şeirləri, məzmunlu poemaları, nəsr əsərləri, publisistik yazıları, xatirələri, elmi məqalələri ilə XX əsrin ikinci yarısı XXI əsrin əvvəllərində Azərbaycan ədəbi-mədəni həyatında fəal iştirak etmiş, özündən sonra qoyub getdiyi əsərləri ilə yeni mübariz nəslin yetişməsinə xidmət etmişdir. Ümumiyyətlə, yüksək sənət əsəri gələcək

nəsillərin özlərini əks etdirdikləri passiv ekran yox, klassik əsərlə yeni nəsillər arasında dialoqdur. Bu dialoq prosesində klassik bədii nümunənin mənasının dəyişməsi və zənginləşməsi ilə yanaşı şüurlarındakı və qəlblərindəki boşluğu doldurmaq imkanı əldə edirlər. Bədii irsin məhsuldarlığı, onun "dirilmək" və insanların yanına qayıtmaq qabiliyyəti bununla bağlıdır. Bununla bağlı olaraq görkəmli ədəbiyyatşünas-filosof alim Mixail Baxtin qeyd edirdi ki, hər bir mənanın yenidən doğulma bayramı olacaq.[1] Totalitar sovet rejimində olduğu kimi, müstəqillikdən sonra da şair ikiyə parçalanmış Azərbaycanın dərdini, qardaşın qardaşa həsrətini, milli azadlığı, müstəqil dövlətçiliyi poeziyada və nəsrdə təsirli bir şəkildə oxuculara, xüsusən də, gənclərə çatdırır. Onun əsərlərinin bir çox dillərə, o cümlədən, fars, rus, slavyan dillərinə tərcümə edilməsi Azərbaycanın reallıqlarının dünyanın bir çox ölkələrində təbliğ olunmasında mühüm rolu vardır. Bu baxımdan Azərbaycan ədəbi fikrinin yeni bir istiqamətini formalaşdıran Söhrab Tahirin yaradıcılığının öyrənilməsi aktual məsələdir.

Milli müstəqilliyə nail olduqdan sonra bütün sahələrdə olduğu kimi Cənub mövzusunda yazan şair və yazıçıların da əsərlərinin öyrənilməsi istiqamətində yeni bir mərhələ başladı. Söhrab Tahirin şeir, poema, hekayə, povest və romanlarında qaldırdığı müxtəlif milli-mənəvi məsələlər, siyasi-ictimai problemlər dövrün öyrənilməsində mühüm səciyyə daşıyır. Bu baxımdan qeyd etmək lazımdır ki, konkret zaman kəsimində milli ədəbiyyatda yaranan bədii nümunələrin zaman-zaman, oxucu-oxucu həyata keçən aramsız hərəkətinin ifadəsi kimi ədəbii prosesin dinamikasında yerini və dəyərini müəyyən etməyə əsas verir. Belə ki, onun poeziyasında və nəsr əsərlərində qoyduğu və bədii həllini verməyə çalışdığı hürriyyət, birlik ideyası, şəxsiyyətin mənəvi azadlığı, istibdad-demokratiya, rejim-milli hökumət münasibətləri, Cənubi Azərbaycan inqilablarının məğlubiyyət səbəbləri və sair əhatəli araşdırma tələb edən vacib problemlərdir. Söhrab Tahirin əsərlərində milli kimlik, Azərbaycan etnik

---

1 Бахтин, М. М. Эстетика словесного творчества / М.М. Бахтин. – Москва: Искусство, – 1986. – 258 с.

düşüncəsi fonunda ortaya çıxmış və ən əsas hadisə kimi ümumiləşmişdir. Bu ruh şairin yaradıcılığından qırımızı xətt kimi keçən azadlıq və istiqlal məfhumudur. Azadlıq Azərbaycan xalqının nümunəsində bütün bəşəriyyət üçün əhəmiyyətli olan bir hadisədir. Dünya ədəbiyyatında milli azadlıq, fərdi hürriyyət ümumbəşəri hiss olub bütün insanlıq üçün ortaq anlayışdır. Milli azadlıq, milli birlik, bütöv vətən, bütöv xalq ideyası ədəbiyyatda yeni hadisə olmasa da, bu sahədə Söhrab Tahir demək olar ki, öz modelini yarada bilmişdir. Onun yaradıcılığında milli birlik və azadlıq anlayışlarını geniş mənada insanlıq düşüncəsi birləşdirir. Söhrab Tahiri sadəcə milli problemlər deyil, həm də bəşəri düşüncələr məşğul edir, yaratdığı obrazlarla, milli dəyərlərlə bəşəri düşüncənin təbii vəhdətini yaradır.

Mövzunu aktual edən bir mühüm məsələ də sürətlə qloballaşan, siyasi və iqtisadi, mədəni və mənəvi maraqların toqquşduğu dünyada millilik, bütöv Azərbaycan, azadlıq, müstəqillik ideyalarını bədii dilin gücü ilə təbliğ etməkdən ibarətdir. Söhrab Tahir bütün bu milli məsələləri Sovet imperiyasının mövcud olduğu illərdə qələmə almış, müstəqillik qazanıldıqdan sonra da eyni ruhda davam etdirmişdir.

Söhrab Tahirlə bağlı dissertasiya işinin aktuallığını şərtləndirən ən mühüm amillərdən biri onun poeziyasının bədii problematikası məsələsi, bu problemlərin fəlsəfi-estetik mahiyyəti, ümumiləşdirici səciyyəsi, milli özünəqayıdışın dərki və bütün bunların obrazlı inikasıdır.

Ədəbi tənqid Söhrab Tahirin əsərlərinin bu və ya digər xüsusiyyətləri haqqında məqalələr vasitəsilə diqqətə çatdırsa da, onun yaradıcılığının geniş elmi təhlili sistemli şəkildə tədqiq olunmamışdır. Bu baxımdan Vaqif Arzumanlının şairin 75 illiyinə həsr etdiyi tədqiqat əsəri diqqəti cəlb edir. [2] Bu monoqrafik araşdırmada müasir ədəbiyyatşünaslıq konsepsiyaları baxımından elmi təhlilə geniş yer verilməsə də, əsasən şeirlər və poemalar

---

[2] Arzumanlı, V. 75 yaşın pillələri: Söhrab Tahir-75: Ömürdən yarpaqlar / V.Arzumanlı. – Bakı: Qartal, – 2001. – 336 s.

təhlil edilmişdir. Söhrab Tahirin poetik yaradıcılığından bir çox elmi-publisistik məqalələr mövcuddur. Onların arasından A.Babayevin "Ölümdən güclü… (Söhrab Tahirin eyni adlı kitabı haqqında)", R.Duyğunun "Mübariz poeziya (Şair Söhrab Tahir haqqında)", A.Əbilovun "Təbrizdən Turana gedən yol: Bu Söhrab Tahirin məslək və tale yoludur", T.Mütəllibovun "Yaş artıqca gəncləşən ürək" kimi məqalələr diqqəti cəlb edir. Şairin lirik yaradıcılığı haqqında G.Pənah da bir kitab yazmış, onun lirik şeirlərini və lirik ovqatlı poemalarını təhlil etmişdir. Bütün bu yazılar şairin yaradıcılığının elmi tədqiq olunmasının aktuallığını səciyyələnməsinə rəvac verir.

Beləliklə, XX-XXI əsr Azərbaycan ədəbiyyatının ən məhsuldar şair və nasirlərindən biri olan Söhrab Tahirin yaradıcılığının sistemli şəkildə araşdırılması, əsərlərinin geniş planda və ciddi elmi müstəvidə tədqiqat obyekti olması ədəbiyyatşünaslığımızın vacib məsələsi hesab oluna bilər.

Bütün bunları nəzərə alaraq bu dissertasiya ilə Söhrab Tahirin çoxyönlü bədii yaradıcılığı monoqrafik planda, geniş elmi-nəzəri aspektdən öyrənilir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas predmeti Söhrab Tahirin bədii yaradıcılığı – poeziyası, povest və romanlarıdır. Milli azadlıq, müstəqillik uğrunda verilən savaş, şahlıq rejiminin ifşası, həmçinin bütöv Azərbaycan məfkurəsi də tədqiqatın predmetidir. Araşdırmanın obyekti şairin müxtəlif illərdə yazdığı şeir, poema, hekayə, povest və romanları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi 50 ildən çox ədəbi mühitdə fəaliyyət göstərən Söhrab Tahirin yaradıcılığı fonunda diqqət çəkən Cənub mövzusu, azadlıq, istiqlal, birlik kontekstində milli azadlıq məfkurəsinin öyrənilməsidir. Onun yaradıcılığında qaldırılan problemlərin tədqiq edilməsi üçün dissertasiyanın qarşısında aşağıdakı vəzifələrin həlli qoyulmuşdur:

– Söhrab Tahirin yaradıcılığını şərtləndirən ictimai-siyasi və ədəbi-mədəni mühitin öyrənilməsi;

– Şairin poeziyasında Təbriz mərkəzli şeirlərin kontekstində azadlıq, milli oyanış və bütöv Azərbaycanın motivlərinin tədqiq edilməsi;

– Ərdəbil, Xoy, Savalan, Culfa, Astara kimi coğrafi adların timsalında şairin poeziyasındakı tarixi vətən yaddaşının ifadə etdiyi fəlsəfi-estetik amillərin aydınlaşdırılması;

– Cənub şeirləri üçün xarakterik olan həsrət, kədər, ayrılıq motivlərinin özünəməxsus təqdimatı;

– Söhrab Tahir poeziyasında Araz çayının ayrılıq, həsrət, kədər ifadə etmək simvolikasının müəyyənliyi;

– Mübarizə və inqilab pafosu, məfkurəsi şeir və poemaların təhlil xüsusiyyətləri;

– Azərbaycançılıq idealının bədii təcəssümünə elmi-nəzəri baxışın fərdilikləri;

– Sənətkarın bədii nəsrindəki hürriyyət, azadlıq və milli birlik ideyasının təkamülünü izləmək;

– Cənubda qurulan Azərbaycan Milli Hökumətinin (Pişəvəri hökuməti) bədii təcəssüm xüsusiyyətlərinin araşdırılaraq üzə çıxarılması;

– Tarixi şəxslərin (Səttərxan, Seyid Cəfər Pişəvəri, Məmmədəmin Rəsulzadə, Nəriman Nərimanov, Qəvamüddövlə, Məhəmmədrza Şah Pəhləvi, Müsəddiq və digərləri) reallığa uyğun təqdimatı;

– Nəsr əsərlərində milli xarakterə sahib əsl azərbaycanlı obrazının inikas xüsusiyyətləri.

**Tədqiqat metodları.** Dissertasiyanın tədqiqat metodunun tarixi-müqayisəli təhlil metodu təşkil edir. Tətbiq metodu zamanı elmi-tədqiqat üsullarının müxtəlif vasitələrindən istifadə edilmiş, analitik təhlillər aparılmış, elmi-nəzəri fikrin təcrübəsi əsas götürülmüş, dissertasiya və monoqrafiyaların geniş imkanlarından, mətbuat və ədəbiyyat tarixçiliyi, habelə, arxiv materiallarına istinad edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyanın əsas elmi yeniliyi aşağıdakı müddəlarda təqdim edilmişdir:

–XX-XXI əsr Azərbaycan poeziyasının və nəsrinin görkəmli nümayəndəsi Söhrab Tahirin yaradıcılığının əsas istiqamətinin Cənub mövzusu olduğunun əsaslandırılması;

–Söhrab Tahirin poeziyasında Cənubi Azərbaycan mərkəzli şeirlərin əsas ideyasını təşkil edən azadlıq, milli oyanış və bütöv Azərbaycan məsələsinin önə çıxarılması;

–Vətən anlayışının Təbriz, Ərdəbil, Xoy, Savalan, Culfa, Astara kimi konkret coğrafi adlarda kodlaşması;

–S.Tahirin əsərlərindəki zaman və fərd, qəhrəmanlıq və mövcud siyasi şərtlərin təsvirlərdə, obrazların fəaliyyətində öyrənilməsi;

–Ədibin yaradıcılığında azadlıq, istiqlal, birlik kontekstində milli düşüncənin və milli xarakterlərin təspiti;

–Azərbaycan nəsrinin Cənub mövzusunun S.Tahir yaradıcılığında yeni bir mərhələyə girməsinin müəyyənləşdirilməsi;

–Ədəbi tənqidin S.Tahir yaradıcılığına, povest və romanlarına münasibətinin təyin edilməsi;

–Şahlıq rejiminin iri həcmli nəsr əsərlərində ifşası və buna paralel olaraq milli azadlıq hərəkatının hər tərəfli səciyyələndirilməsi;

–Azərbaycançılıq düşüncəsinin, vətənin bölünməzliyi, fərdin azadlığı ideyasının poetik tərənnümünün orijinallığı;

–S.Tahirin hekayə, povest və romanlarında S.C.Pişəvəri hökumətinin fəaliyyəti, gördüyü işlər və xəyanət nəticəsində süqutunun müəyyənləşdirilməsi;

–S.Tahir yaradıcılığında milli xarakterə sahib əsl Azərbaycanlı obrazının səciyyələndirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın əsas elmi yeniliyi Söhrab Tahirin çoxşaxəli, zəngin yaradıcılığında əsas poetik xüsusiyyətlərin, ideya, forma və məzmun fərdiyyətinin üzə çıxarılması olmuşdur. Məlumdur ki, əslində Cənub Azərbaycan mövzusu Azərbaycan ədəbiyyatında ilk dəfə Söhrab Tahir tərəfindən ədəbi ictimaiyyətə gətirilmiş, vətən, həsrət, ayrılıq, kədər, birləşmə, ümid, azadlıq mövzusu poeziyasında tarixi reallığı, milli koloriti, mübarizə, istibdadın ifşası, şahlıq rejiminin inqilab yolu ilə devrilməsi mövzusu da ilk dəfə sənətkarın bədii nəsrində fərdi üslub keyfiyyəti, özəllikləri qazanmışdır. Həmçinin Söhrab Tahirin indiyə qədər elmi ictimaiyyətin diqqətindən

kənarda qalmış Cənub mövzusunda yazılmış bir çox şeir və poeması, povest və romanı da ilk dəfə olaraq tədqiqata cəlb edilmiş şairin sənətkarlıq fərdiyyətinin bədii üslub dəyərlərini çağdaş elmi-nəzəri baxış əksini tapmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın əsas nəzəri-praktik bazasından müasir bədii ədəbiyyat mətninin strukturu, arxitektonikası və modelləşdirilməsi baxımından poetik sistemin öyrənilməsi və gələcəkdə Cənub mövzusu ilə bağlı bir çox əsələlərin qoyuluşu və həllində istifadə oluna bilər.

Dissertasiya işindən ali məktəb tələbələri, gənc yazıçı və şairlər, Cənubi Azərbaycan ədəbiyyatını və ümumiyyətlə, Cənub mövzusunu araşdıranlar, həmçinin müasir Azərbaycan ədəbiyyatının bu və ya digər problemləri ilə məşğul olan mütəxəssislər istifadə edə bilərlər. Onun başlıca müddəalarından ali məktəblərdə müasir ədəbiyyatın tədrisi zamanı istifadə etmək və həmçinin dərslik və dərs vəsaitlərinin yazılmasında faydalanmaq mümkündür.

**Tədqiqatın aprobasiyası.** İddiaçı mövzu ilə əlaqədar müxtəlif beynəlxalq konfranslarda, gənc tədqiqatçıların Ümumrespublika konfransında məruzələrlə çıxış etmişdir. Həmçinin dissertasiya işinin vacib müddəaları müəllifin Azərbaycanda və xaricdə ayrı-ayrı jurnal və məcmuələrdə çap etdirdiyi məqalələrdə öz əksini tapmışdır .

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Universitetinin "Azərbaycan dili və Ədəbiyyat" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və ümumi həcmi.** Dissertasiya giriş (12.146 şərti işarə), üç fəsil (birinci fəsil – 48.233 şərti işarə; ikinci fəsil – 66.125 şərti işarə; üçüncü fəsil – 90.764 şərti işarə), nəticə (5.682 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın ümumi həcmi 221.950 şərti işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, dissertasiyanın obyekti və predmeti, metodoloji əsasları, məqsəd və vəzifələri, problemin öyrənilmə dərəcəsi, tədqiqatın elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti müəyyənləşdirilir, aprobasiya və quruluşundan bəhs olunur.

**"XX əsrin II yarısında Azərbaycanda ədəbi proses və Söhrab Tahirin yaradıcılığı"** adlanan birinci fəsil iki paraqrafdan: "Söhrab Tahir yaradıcılığının tədqiq tarixi"və "XX əsr ədəbi proses fonunda Söhrab Tahir yaradıcılığı"dan ibarətdir. Bu fəslin birinci paraqrafında Cənub mövzusunun nümayəndələrindən biri Söhrab Tahir yaradıcılığının tədqiq tarixi və ədəbi tənqidin onun əsərlərinə münasibəti öyrənilmişdir.

Cənub mövzusunun, istibdadın ifşasının, milli oyanışın, hürriyyətin, bütöv Azərbaycan ideyasının fəal təbliğatçısı olan Söhrab Tahir ədəbi prosesin bütün sahələrində iştirak etmiş, şeirdən publisistik yazılara, elmi məqalələrdən xatirələrə və oradan da nəsr əsərlərinə qədər hər mövzuda qələmini sınamış, özündən sonra müxtəlif janrları əhatə edən 50-dən çox kitab qoyub getmişdir. Kamal Talıbzadə qeyd edirdi ki, "*XX əsrin əvvəllərində ədəbiyyata tənqidi münasibət xüsusilə güclü idi. Ədəbi ictimaiyyətdə ümumi olaraq belə bir fikir hasil olmuşdur ki, artıq ədəbiyyatı ədəbi tənqidsiz irəli aparmaq mümkün deyil. Azərbaycan ədəbiyyatı elə bir inkişaf pilləsinə yüksəlmiş və elə mürəkkəb bir proses keçirmişdir ki, onu mütləq təhlil etmək, zəif və qüvvətli tərəflərini meydana çıxarmaq, saf-çürük etmək və istiqamətləndirmək lazımdır. Tənqidsiz müasir ədəbiyyat irəli gedə bilməz, odur ki, ədəbi tənqidə, fikirlər döyüşünə, mübahisə və müzakirəyə geniş meydan vermək lazımdır*"[3].

Tənqidçi-ədəbiyyatşünas həm yazıçının, həm də şairin yaratdığı sənət əsərlərini təhlil edir, ideyasını, fəlsəfəsini başa düşməyə, formasını, daxili strukturunu qiymətləndirməyə, izah

[3] Talıbzadə, K.A. XX əsr Azərbaycan tənqidi / K.A.Talıbzadə. – Bakı: EA nəşriyyatı, – 1966. – s.154.

etməyə çalışır və bununla da öz spesifik vəzifəsini yerinə yetirir: "*Bu da özünə görə bir növ yaradıcılıqdır, sənətdir; təhlil və izah, dərketmə və dəyərləndirmə sənətidir*"[4]. Bu sənət olmadan ədəbiyyat irəli gedə bilməz. Ümumiyyətlə, tənqid olmadan ədəbiyyatda vəziyyət xaotik bir hal alar.

G.Pənah adlı müəllifin Söhrab Tahir haqqında yazılan tədqiqat əsərində şairin ilk qələm təcrübəsindən ən böyük əsəri olan "Ata" poema-eposuna qədər bütün məsələlərə toxunulmuş, xüsusən də həyat və yaradıcılığı haqqında geniş məlumat verilmiş, şairin məhəbbət lirikası, Cənub həsrətli lirik şeirləri, ömürdən şikayət, ayrılıqdan giley, vətən, azadlıq kimi əsərləri bir az publisistikyana təhlil edilmiş, bütöv azərbaycançılıq ruhunda yazılan şeirləri də diqqətə alınmışdır[5].

Söhrab Tahirin yaradıcılığı haqqında yazılan qəzet və jurnal məqalələrindən A.Babayevin "Ölümdən güclü… (Söhrab Tahirin eyni adlı kitabı haqqında)" məqaləsini, R.Duyğunun "Mübariz poeziya (Şair Söhrab Tahir haqqında)" yazısını, T.Mütəllibovun "Yaş artıqca gəncləşən ürək (Şair S.Tahir haqqında)" məqaləsini, A.Əbilovun "Təbrizdən Turana gedən yol: Bu Söhrab Tahirin məslək və tale yoludur (esse)" adlı essesini, yenə V.Arzumanlının "Bölünmüş vətənin bütövlük rəmzi: Söhrab Tahir – 80", "Qəlbi cavan, ömrü dastan Söhrab Tahir: Söhrab Tahir – 80" adlı məqalələrini, Flora Xəlilzadənin "Arazla baş-başa dayanan poeziya: Söhrab Tahir – 80", "Yer üzünün gəzəri Savalan: Söhrab Tahir" məqalələrini, X.Ulutürkün "İki qardaş, iki şair. Xalq şairi Söhrab Tahir AzərAzər haqqında" kitabını, İ.Əsədovanın "Azərbaycanın istiqlaliyyəti ömrümün amalı olub: Söhrab Tahir-85" yazısını, tənqidçi Vaqif Yusiflinin "Ustad şair", "Söhrab əmi, 90 yaşın mübarək", "Söhrab əmi...: Azərbaycanın xalq şairi Söhrab Tahir haqqında" məqalələrini, Gülayənin "Boş qalan yerlərdən gözlərim qorxub: Söhrab Tahir

---

[4] Salmanov, Ş.M. Akademik Kamal Talıbzadə / Ş.M.Salmanov. – Bakı: Ozan, – 1998. – 106 s.

[5] Pənah, G.V. Söhrab Tahir AzərAzərin lirikası / G.V.Pənah. – Bakı: Şur, – 2012. – 448 s.

yaradıcılığı haqqında" və başqa müəlliflərin yazı və məqalələrini göstərmək mümkündür[6].

Söhrab Tahirin ən böyük ədəbi əsəri olan "Ata" poema-eposu haqqında ədəbi tənqiddə müəyyən fikirlər mövcuddur. Bu tip təhlil yazılarında, Zərdüştlik, tarixi anaxronizmlər haqqında mülahizələr söylənir. Təbii ki, bu böyük əsərdə əsas vurğu insan ağlına, insan beyininə, elmə, zəkaya doğru yönəldilmişdir. Avropa fəlsəfi fikrində ilk dəfə ətraflı və sistemli şəkildə düşünülmüş rasionalizm fəlsəfəsinin əsaslarını işləyib hazırlayan R.Dekart "Metod haqqında düşüncə" əsərində dəqiq şəkildə materiyanı və ruhu, hissi və idrakı bir-birindən fərqləndirirdi[7]. Bu baxımdan şairin poemasında güc və ağıl qarşılaşdırılaraq dünyanın dərk olunmasında ağıla üstünlük verilir.

Bu paraqrafda XX əsrin 1950-80-ci illər ədəbi prosesinə baxış aspektində Söhrab Tahir yaradıcılığı dəyərləndirilmiş, tənqid-ədəbiyyatşünaslıq məsələləri tədqiq edilir, yazıçının özünəməxsusluğu üzə çıxarılır.

Ədəbi prosesdə fəal iştirak edən və bu illər ərzində olduqca məhsuldar çalışan Söhrab Tahir 60 illik yaradıcılığında 50-dən çox kitaba imza atmışdır. Onun kitablarından, "Ay işığında" (1954), "Bulaq" (1959), "Səndən uzaqda" (1961), "Həyat şirindir" (1963), "Qırılan zəncirlər" (1965), "Mən səni

---

[6] Əbilov, A.Ə. Təbrizdən Turana gedən yol: Bu Söhrab Tahirin məslək və tale yoludur: Esse // Yeni Azərbaycan. – 2001, 21 aprel. – s. 6; Arzumanlı, V. Bölünmüş vətənin bütövlük rəmzi: Söhrab Tahir – 80 // Ədəbiyyat qəzeti. – 2006, 2 iyun. – s. 4; Arzumanlı, V. Qəlbi cavan, ömrü dastan Söhrab Tahir: S.Tahir – 80 // Azərbaycan. – 2006. №5. – s.190-192; Xəlilzadə, F.F. Arazla baş-başa dayanan poeziya: Söhrab Tahir – 80 // Azərbaycan. – 2006, 27 may. – s.7; Xəlilzadə, F.F. Yer üzünün gəzəri Savalan : Söhrab Tahir // Kaspi. – 2014, 24 may. – № 89. – s. 17; Ulutürk, X.R. İki qardaş, iki şair: xalq şairi Söhrab Tahir AzərAzər haqqında: Toplu / X.R.Ulutürk. – Bakı: Naksuana, – 2009. – 238 s; Yusifli, V.Ə. Söhrab əmi: Azərbaycanın xalq şairi Söhrab Tahir haqqında // Ədəbiyyat qəzeti. – 2015, 14 mart. – № 16/17. – s. 13; Yusifli, V.Ə. Ustad şair // Ədalət qəzeti. – 2015, 4 aprel. – s. 5; Yusifli, V.Ə. Söhrab əmi, 90 yaşın mübarək // 525-ci qəzet. – 2016, 29 mart. – s. 7.

[7] Антология концептов / под ред. В. И. Карасика, И. А. Стренина. – Москва: Гнозис, – 2007. – с.225-226;

görmüşəm" (1967), "Burdan bir atlı keçdi" (1972), "Azad qardaşım var" (1973), "Mənim yolum (1975)", "Döyüş lövhələri" (1980), "Ölümdən güclü həyatdan uca (1981)", "Qonşu qızın məktubları" (1985), "General" (1989), "Əmanət" (1991), "Seçilmiş əsərləri" (2005), "Ata" (2009) və s. kitabları nəşr olunmuşdur.

Azadlıq ideyası şairin şeir yaradıcılığının əsasını təşkil etdityi kimi epik poemalarında, xüsusən də nəsr əsərlərində daha qabarıq verilmişdir. Bu baxımdan onun mövzusunu Cənubi Azərbaycan həyatından, inqilabdan alan "Məhbus heykəltaraş" poeması xüsusi maraq doğurur. "Asılı" adlı poeması isə İranda inqilabdan sonrakı dövrün tərənnümü ilə doludur, "Naməlum şairin şeir dəftəri" poeması İran həyatından, yüzlərlə, minlərlə naməlum şairlərin, fədailərin, adsız qəhrəmanların mübarizə yolundan, əziyyətlərindən bəhs edir, "Səttarxan poeması" İranda baş verən tarixi Məşrutə inqilabı haqqında geniş bədii məlumat verməklə yanaşı Səttarxan, Bağırxan kimi milli qəhrəmanların mübarizəsini, uğradıqları xəyanəti göstərir, "Bir il azadlıqda" adlı poeması ilə şair Təbrizin canlı sürətini yaradır, "Azərbaycan" poeması isə bir xalqın varlığını dananlara, onun dilini, mədəniyyətini inkar edənlərə cavab kimi yazılmışdır.

"*S.Tahir poeziyasının baş mövzusu olan Azərbaycan, bütün ictimai, siyasi, tarixi hadisələri, mübarizələri, dərdi, həsrəti, hicranı, amalı, məqsədi, məfkurəsi, milli təəssübkeşliyi ilə yaradıcılığının əsas qayəsini təşkil edir*" [8] . Azərbaycan poeziyasında S.Tahir qədər milli olan ikinci bir şair tapmaq çətindir.

Söhrab Tahir həm lirik, həm də epik poemalar müəllifidir. "Atamın məktubları" adlı lirik poeması məktub və cavab üzərində lirik duyğuların tərənnümünü, "Sevgi əfsanəsi" poemasında əfsanələşən sevginin ucalığını, "Son məktub" poemasında lirik mənlə onun sevgilisi arasındakı dialoqu, "Sağolbaba sağ olsun" lirik poemasında da "sağ ol" kəlməsinin

---

[8] Pənah, G.V. Söhrab Tahir AzərAzərin lirikası / G.V.Pənah. – Bakı: Şur, – 2012. – s. 173.

böyüklüyünü, Fərhad, Şirin, Xosrov sevgisindən bəhs edən poemasında məhəbbət motivli əhvalatı dilə gətirir. Bununla yanşı o, azadlıq mövzusunda yazdığı poemaları ilə də tanınır. Onun "Azərbaycan" poeması vətənpərvərlik mövzusunda yazılmış ən yaxşı əsərlərdən biridir[9].

İkinci fəsil **"Söhrab Tahir poeziyasında Cənub mövzusu və milli azadlıq ideyası"** adlanır. Bu fəsil 3 paraqraf və 2 bənddən ibarətdir. "XX əsr Cənubi Azərbaycan hərəkatının ədəbiyyatda inikası" adlı birinci paraqrafında milli azadlıq ideyasının milli oyanışla bağlı olduğu və ideyanın M.F.Axundzadə ilə başladığı və ideoloji-siyasi konturlarının Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, M.Məmədzadə, Ə.Ağaoğlu kimi fikir adamları tərəfindən təyin edildiyi göstərilir. Milli azadlıq fikirləri Cənubi Azərbaycan ədəbiyyatında XX əsrin əvvəllərində başlasa da, 1941-1945 İkinci Dünya Müharibəsindən sonra intensiv forma aldığı görünür. Ədəbiyyatda milli oyanışın öndərlərindən olan Balaş Azəroğlu, Əli Tudə, Mədinə Gülgün, Hökumə (Həkimə) Billuri, Piruz Dilənçi və Söhrab Tahir kimi şairlərin fəaliyyəti ilə Cənub mövzusu zirvəyə qalxdı.

İkiyə parçalanmış Azərbaycanın azadlıq mübarizəsini bu və ya digər formada ədəbiyyata gətirən şair və yazıçıların əsərlərində bu ideya sadəcə coğrafi mənada - Azərbaycan məkanı ilə məhdudlaşmır, eyni zamanda tarixi-mədəni kontekst daxilində dərk edilir - azadlıq fikri ilə milli yaddaşa, milli tarixə, oyanışa qayıdış baş verir. Təbii ki, poeziyada milli-azadlıq ideyasının inikası yetərincə araşdırılmadığından yaxın və uzaq tarixə nəzər salınsa da[10], hələ də milli istiqlal dövrü ədəbiyyatının forma və məzmunu kifayət qədər öyrənilməmiş qalır. Bu paraqrafda B.Vahabzadənin, M.Arazın, C.Novruzun, X.R.Ulutürkün milli azadlıq ruhlu şeirlərindən nümunələr gətirilmiş, XX əsr

---

[9] Tahir, S.Ə. Sevgi əfsanəsi. Şeirlər və poemalar / S.Ə.Tahir. – Bakı: Yazıçı, – 1983. – 284 s.; Tahir, S.Ə. Döyüş lövhələri. Şeirlər və poemalar / S.Ə.Tahir. – Bakı: Yazıçı, –1980. – 142 s.; Tahir, S.Ə. Vətənlə sevgi arasında: şeirlər və poemalar / S.Ə.Tahir. – Bakı: Yazıçı, – 1986. – 344 s.

[10] Qarayev, Y.V. Tarix: yaxından və uzaqdan / Y.V.Qarayev. – Bakı: Sabah, – 1996. – 712 s.

ədəbiyyatımızda Cənub mövzusunun özünəməxsusluğu öyrənilmişdir. Həyatını inqilaba həsr edən, ancaq Şimali Azərbaycanda yaşamağa məcbur olan S.Tahir “Vətən” adlı şeirində Cənubi Azərbaycandakı milli azadlıq hərəkatını, bu hərəkatdakı iştirakını xatırlayaraq, ömrünün qalanını bu tayda – Şimali Azərbaycanda keçirməyə məcbur qaldığını və bütün bunların onun həyatında bitib-tükənməyən bir həsrətə səbəb olduğunu dilə gətirir [11].

“Söhrab Tahirin poeziyasında milli azadlıq ideyası” adlanan ikinci fəslin ikinci paraqrafında Söhrab Tahirin çoxyönlü, rəngarəng yaradıcılığının mərkəzində milli azadlıq ideyası, azadlıq mübarizəsi, müstəqillik davası, inqilab durur. Söhrab Tahir azadlığı əbədiyyət baharı adlandırır, şəhidlərin qanı ilə sulanmış azadlıq gülüstanında müstəqilliyə nail olmaq üçün hələ çox qan axıdılacağını və sonunda Cənubi Azərbaycanın müstəqil olacağını və hər iki ölkənin vahid bayraq altında birləşəcəyini bildirir.

Söhrab Tahirin yaradıcılığında məşrutəyə çağırış səsləri azadlıq ideyasının təbii formasından onun ali məqamına yüksəlmə cəhdlərinin poetik tərənnümüdür. Azadlığı şərtləndirən əsas amillər mənəvi, ruhani, intellektual tərəflərdir. Bu barədə Timur Kibirov şeirlərinin birində deyir: “*Azadlıq ayağı yalın, ucuz şalvarda gəlmir, o kosmetik gözəllik aləti də deyildir. O başqa bir aləmin, başqa bir dünyanın varlığıdır, yəni Nekrasovun da yazdığı kimi azadlıq elə azadlıqdır* [12]. Hər bir mübariz Azərbaycan şairi kimi Söhrab Tahir də milli azadlıq əzmindən bir an da olsun vaz keçmir, çünki o, vətənin müstəqilliyi uğrunda mübarizə apara-apara bərkimiş, həyatını bu yola həsr etmiş şairdir:

Heç kəs, heç kəs qıra bilməz
Mübarizə qürurumu.
Özüm, özüm çalacağam

[11] Tahir, S.Ə. Ay işığında / S.Ə.Tahir. – Bakı: Azərnəşr, – 1956. – s.23.
[12] Кибиров, Т.Ю. Юбилей лирического героя / Т.Ю.Кибиров. – Мосвка: Клуб «Проект ОГИ», – 2000. – с.10.

Köhnə əsrin başı üstdən
Öz qələbə şeypurumu[13].

Şair 70-80-ci illərdə azadlıq dedikdə, Şimali Azərbaycanın müstəqilliyinə qədərki dövrdə, hər iki Azərbaycanı nəzərdə tuturdusa, 1991-ci ildən sonra azadlıq dedikdə şah rejimindən xilas olub İslam inqilabının zülmünə uğramış Cənubi Azərbaycanın azadlığından söhbət açır. Hətta dünyanın əsarətdə olan digər xalqlarından bəhs edən şeirlərində də əsas hədəf ikinci sinif vətəndaş olan soydaşlarının azadlığı və müstəqilliyidir. Bu cəhəti ilə onun Cənub poeziyası siyasi motivlidir. Müasir poeziyanın siyasətdən arınmış olması mümkün deyildir, çünki o, şairin şəxsiyyətinə və ya lirik qəhrəmana tez-tez müraciət edir, bir fərd olaraq onun şəxsi yerini, yaxud da cəmiyyətdəki münasibətlərini aydınlaşdırır. Azadlıq ideyasının bədii mətndə üç inkişaf sahəsi – birincisi, mən və başqaları, ikincisi, mən və cəmiyyət, üçüncüsü, mən və dünya üzərində formalaşdığı bildirilir[14]. Siyasiləşmiş azadlıq düşüncəsi Söhrab Tahir yaradıcılığında birbaşa verilməsə də, Cənubi Azərbaycanın azad olması, müstəqil olması fikri özü-özlüyündə siyasidir.

Söhrab Tahirin milli azadlıq fikirləri, əslində müstəqillik anlayışına bağlanır, çünki azadlıq daha fəlsəfi, daha siyasi, daha ideoloji və nəhayət, etik-mənəvi anlayışdır. Nəzərə almaq lazımdır ki, rus milli dünyagörüşündə də fərdi azadlıq konsepsiyası geniş mənada mövcud olan azadlıq ideyasını sıxışdırıb arxa plana keçirmişdir[15].

Şeir və poemalarında Söhrab Tahirin inqilabların, mübarizələrin şanlı keçmişini xatırlaması, onun fərdi azadlığı müstəqil deyil, milli azadlığın tərkib hissəsi kimi görməsindədir.

---

[13] Tahir, S.Ə. Mənim yolum. Şeirlər və poemalar / S.Ə.Tahir. – Bakı: Gənclik, – 1975. – s.60.

[14] Граф, А. Концепт «свобода» в современной русской лирике: [Электронный ресурс] / А.Граф. Acta Universitatis Lodziensis Folia Litteraria Rossica 7, – 2014. – с. 193-200. – URL: http://www.lexrus.ru/ default. aspx?p =2855

[15] Занегина, Н.Н. О смысловой парадигме концептов «свобода» и «воля»: [электронный ресурс] / disserCat электронная библиотека диссертации. – 10 Января, 2001. – https://lexrus.ru/default.aspx?p=2855

Azərbaycan ədəbiyyatının ən məhsuldar şairlərindən və yazıçılarından biri olan Söhrab Tahir milli-azadlıq anlayışı altında əsasən, üç başlıca məsələyə toxunmuşdur ki, bunlardan birincisi Cənubi Azərvaycanın müstəqilliyi, ikincisi bu müstəqilliyi qazanmaq üçün inqilab etmək, üçüncüsü də siyasi, ideoloji və silahlı mübarizəyə qalxmaq:

Səbr evinin quyuları dolu qan,
Şəhid olmuş düzlərində ulu qan,
Nə görmüşəm sənlə hələ mən, gülüm,
Üç inqilab! Üç azadlıq! Üç ölüm![16]

Üçüncü paraqraf "Şairin poeziyasında tarixi gerçəkliyin inikası" adlanır və bu paraqraf iki başlıq altında araşdırılır. Bunlardan birincisində əsasən, Cənub mövzusunda yazılan şeirlərdə poetik fiqurlar araşdırılmışdır. Bu poetik fiqurlar vətən, ayrılıq, birlik, həsrət, kədər, nisgil və s.dir. Söhrab Tahir Cənub mövzusunda yazdığı irili-xırdalı əsərləri ilə Azərbaycanın minillik tarixi yaddaşını silkələməyə, o tayın dərdini unutmamağa, unutdurmamağa çalışan şairdir. O, Təbriz, Savalan, Mərənd, Xoy, Urmiya, Səhənd, Astara, Culfa, qısacası Araz şairidir. Bu cəhətdən şairin beş bəndlik, ancaq bir az kədərli notlarla ("qəmli baxış", "qəbir", "dərələr anamın qarğışlarıdır", "dağılmış məşrutə səngərləri", "ayrılıq həsrəti" və s.) dolu, poetik cəhətdən mükəmməl "Mərənd" adlı şeiri diqqətəlayiqdir[17].

Söhrab Tahirin vətən və ayrılıq şeirləri Təbriz simvolunda birləşir. Təbriz şəhərlər içində ən dəyərli, ən qiymətli şəhərdir. Bu onun azadlıq yuvası, fədailər yurdu, qəhrəmanlar diyarı olmasına, şanlı tariximizə şahidlik etməsinə görədir. Söhrab Tahir Təbrizə çox sayda şeir və iki müstəqil poema həsr etmişdir. Bu poemalardan biri "Vicdan əzabı", digəri də "Qanlı portret"dir[18]. Hər iki poemada Təbriz birlik ideyasının siyasi mərkəzindədir, ayrılığa son verən mübarizə qalasıdır. Onun ikinci poemasında yenə də Təbriz həyatı təsvir olunmuşdur.

---

16 Tahir, S.Ə. Seçilmiş əsərləri / S.Ə.Tahir. – Bakı: Şərq-Qərb, – 2005. – s. 137.
17 Tahir, S.Ə. Seçilmiş əsərləri / S.Ə.Tahir. – Bakı: Şərq-Qərb, – 2005. – s. 64.
18 Tahir, S.Ə. Səndən uzaqda / S.Ə.Tahir. Bakı: Uşaqgəncnəşr, – 1961. – 134 s.

Poemada rəssam olan Cənublu bir fədainin acı taleyi bir qocanın dilindən nəql edilir. Şeirlərində Təbrizin füsunkar gözəlliyini tərənnüm edən Söhrab Tahir eyni zamanda bu qədər gözəlliyin içində bir də yoxsulluğun, səfalətin olduğunu yazır. Bu ziddiyyət onun Təbrizlə bağlı digər şeirlərində də vardır. Şair Cənubi Azərbaycan xalqının müasir həyatı ilə dünya xalqlarının yaşamını müqayisə edir, Azərbaycanın bu tayında Təbrizin dərdi ilə yanan, hətta yuxusunu Bakıdan görən insanlardan danışır:

Göndərə bilmədim, göndərim gərək,
Üzümə qapılar, yollar bağlıdır.
Tək yollar deyil ki, Təbrizdə hələ
Çaylar möhürlüdür, dağlar dağlıdır.[19]

Cənub mövzusu azadlıqla, inqilabla, döyüşkənliklə bağlı olsa da orada həsrət və qəriblik, ayrılıq və qovuşma, qübar və hüzn, bir sözlə, vətən dərdi kimi motivlər də önəmli yer tutur. Ayrılıq onun şeirlərinin ruhuna o qədər hopmuşdur ki, şair özünü "ayrılığın qanlı misrası" adlandırır və "misrasında bir xalqın qəmli yarası" olduğunu yazır, vətəni təbii ki, bütün yaradıcılığının şah misrası adlandırır. Ayrılıq və vətən, birləşmə və maneələr kimi mövzular şairin Cənub silsilə şeirlərinin əsas leytmotivini təşkil edir.

Arazın ayrılıq çayı olduğu Söhrab Tahirin bir şeirində simvolik şəkildə onun dərinliyində özünün əsl mənasını tapır. Şairin dillər əzbəri olan "Çöpü də ikiyə bölmərəm daha" misrası da məhz bu şeirin içindədir:

Azad qardaşım var, onunla xoşam,
Mən gərək sahili sahilə qoşam.
İki bölünməkdən elə qorxmuşam,
Çöpü də ikiyə bölmərəm daha[20].

Onun Cənub mövzusunda yazdığı şeirləri lakonikliyi, axıcılığı, dilinin füsunkarlığı ilə seçilir. Xüsusən, söhbət Təbrizdən, Səhənddən, Savalandan, Sarabdan düşəndə şeirin lirizmi daha da artır. Söhrab Tahir Cənub lövhələrini sözlə elə

---

[19] Tahir, S.Ə. Seçilmiş əsərləri / S.Ə.Tahir. – Bakı: Şərq-Qərb, – 2005. – s. 36.
[20] Tahir, S.Ə. Seçilmiş əsərləri / S.Ə.Tahir. – Bakı: Şərq-Qərb, – 2005. – s. 105-106.

təsvir etmişdir ki, onun bu qədər dolğun təsvirini yaradacaq ikinci bir sənətkar tapmaq mümkün deyildir. Çünki "*Sözün qüdrəti, sözün şirinliyi, sözün ecazkarlığı, sözün dahiliyi, sözün kəsəri bütün dövrlərdə, bütün ölkələrdə bütün xalqlar və bütün millətlər tərəfindən yüksək qiymətləndirilib, ali hesab edilib*"[21].

Həsrət, xüsusən də Cənuba qovuşmaq həsrəti, Cənub nigarançılığı Söhrab Tahir yaradıcılığının əsas mövzularından biridir. Həsrət və qürbət şairin vətən özləmi ilə birləşərək poeziyada yeni bir anlam yaratmışdır və o, parçalanmış, ayrı düşmüş millətlərin birləşməsi arzusu ilə alışıb yanan poetik yaradıcılığa çevrilmişdir.

Şairin poetikasında hüzn və həsrət motivləri qabarıqlığı ilə seçilməklə bərabər, həm də milliliyin, xəlqiliyin, bir sözlə azərbaycançılığın təzahürüdür, bir sözlə siyasi kimliyin özüdür. Ancaq bu təzahür hər zaman xoş əhval-ruhiyyə, gözəllik mənzərələri, füsunkar təbiət lövhələri, peyzajlar içərisində paradoksal şəkildə yeni semantika kəsb edir. Şairin eyni ruhda yazılmış "Sarab" adlı şeiri də həsrət motivini içində gizlədən olduqca lirik lövhələrlə doludur

Çimişən uşaqlar göygöz, qaraşın,
Suları gözündə talan Sarabım.
Günəşdən çayların gözü qamaşır,
Buluddan gözləri dolan Sarabım[22].

Cənub mövzusu özü ilə həsrət, ayrılıq, nisgil, kədər kimi motivlər gətirmişdir. Bu motivlərin hamısına Söhrab Tahirin özünəməxsus poeziyasında rast gəlmək mümkündür.

Cənub silsilə şeirlərinin, poemalarının mövzusu nə qədər rəngarəng olsa da, bu şeirləri və poemaları birləşdirən ana bir xətt vardır ki, o da şairin hər məqamda, hər şəraitdə özünün özünə hesabatı, vicdanı qarşısındakı cavabdehliyi, özünün özü ilə daxili dialoqu, düzlükdən, ədalətdən yana olmasıdır.

---

[21] Quliyev, E. Həsrətdən yaranan poeziya. Arzumanlı Vaqif. 75 yaşın pillələri / E.Quliyev. – Bakı: Qartal, – 2001. – s.225-226.
[22] Tahir, S.Ə. Seçilmiş əsərləri / S.Ə.Tahir. – Bakı: Şərq-Qərb, – 2005. – s. 217.

**“Söhrab Tahirin bədii nəsrində şahlıq rejiminin tənqidi və millilik məsələləri”** adlanan üçüncü fəslin “Sənətkarın nəsrində hürriyyət və milli birlik ideyası” adlı birinci paraqrafında Cənub mövzusu üçün xarakteristik olan bütöv bir epoxadan söhbət açılır. Bu epoxa Pəhləvi sülaləsinin İranda hakimiyyəti ələ keçirməsi və buna rəğmən Azərbaycan türklərinin azadlıq mübarizəsi dövrüdür. Bu problemin Söhrab Tahirin əsərlərində özünəməxsus təcəssümü nəsr əsərlərində öz əksini tapmışdır. Söhrab Tahirin nəsrə gəlişi 1970-ci illərə təsadüf edir. Bu dövr yeni nəsrin və ya 60-cı illərin nəsrinin davamı idi. Buna baxmayaraq, Söhrab Tahirin nəsr yaradıcılığı bu tendensiyadan fərqli bir yöndə inkişaf etmişdir. Təbii ki, bu dövrdə bədii nəsrimiz ədəbi axtarışları nəticəsində xeyli zənginləşmiş, demək olar ki, epik növün istisnasız olaraq, bütün janrları dinamik inkişaf yolu keçmişdir[23].

Ədibin bir çox hekayə və povestlərində, məsələn, “Qonşu qızın məktubları”, “Sevgisində itən qız” (3 kitabdan ibarət roman), “Sonuncu şah” (3 kitabdan ibarət roman), “Naməlum qadının gündəliyi”, “Əlvida, Astara” (avtobioqrafik roman), “Üç tapşırıq”, “Ayrılıq” (avtobioqrafik roman), “Yiyəsiz nişan üzüyü”, “İki dəfə yox olmuş adam” kimi romanlarının hər birində milli azadlıq ideyaları, ölkənin hürriyyəti və xüsusən də şahlıq rejiminin ifşası aparıcı süjet xəttini təşkil edir.

Onu da demək lazımdır ki, S.Tahirin həm ideya, həm də məzmunca oxşar olan poema və romanları formaca və təsvir üslubuna görə fərqlənir. Bu isə nəsr əsərlərinin melodramik xarakter daşımasına, poetikliyin təhkiyəyə qurban verilməsinə, təkrarların çoxluğuna, konfliktin zəif təqdiminə, bəzi dil qüsurları və üslub yanlışlıqlarının ortaya çıxmasına səbəb olmuşdur.

Söhrab Tahir ilk povestinə “İki sevgi, iki güllə” kimi simvolik bir ad vermişdir. Burada iki sevgi əsərin süjetindəki iki

---

[23]Müasir Azərbaycan ədəbiyyatı (Ali məktəblər üçün dərslik): [7 cilddə] / red. C.M.Abdullayev, T.Hüseynoğlu, V.Sultanlı. – Bakı: Bakı Universiteti nəşriyyatı, – c. 2. – 2007. – s.10-14.

fərqli "aşiq-məşuqu" ifadə etməklə yanaşı, real sevgi ilə vətən sevgisini, həmçinin "kişi-qadın məhəbbəti" ilə də azadlıq-müstəqillik aşiqliyini ifadə edir. Hətta əsərin sonunda atılan iki güllə də bu mənada simvolikdir. Obrazlara sıxılan bu güllələrin biri fərdin, tək bir şəxsin ölümünə səbəb olursa, ikinci güllə yenicə qurulmuş Azadıstanın, müstəqilliyin, azadlığın köksünə sıxılmış güllə kimi mənalandırılır. Bu kitabın ardınca müəllif "Yazda payız söhbəti", "Sevgi qurbanı", "Dənizə nişanlı qız", "Əmanət", "İki müttəhim" "Zəri" və "Fədai generalı" adlı yeddi povest (müəllif onları bir kitabda cəmləmişdir[24]) yazaraq onları 1991-ci ildə çap etdirmişdir. Müxtəlif mövzuları əhatə edən bu povestlər yazıçının yarıdıcılıq istiqamətini müəyyənləşdirmişdir. Bu povestlərdən inqilab ruhunu özündə ən çox yaşadan "Fədai generalı"dır. "Qonşu qızın məktubları" romanında cərəyan edən süjet və motivlər bütünlükdə İranda gedən ictimai-siyasi hadisələrə həsr olunmuşdir. Əsərdə real tarixi faktlara əsasən İranda yaşayan azərbaycanlıların azadlıq mübarizəsinin yenidən İranı çalxalaması və buna qarşı da şahlıq rejiminin getdikcə daha da qəddarlaşması fonunda amansızlıqla üz-üzə qalan xalqın iztirabları təsvir olunur. Həm bu romanında, həm də sonrakı romanlarında yazıçı eyni ideyanı vurğulayır. S.Tahir sonrakı romanlarında da Cənubi Azərbaycanda baş verən inqilabi hərəkatı qələmə almağa başlayır.

Milli azadlıq ideologiyasının Söhrab Tahir nəsrində ən bariz nümunəsi "Sevgisində itən qız" və "Sonuncu şah" romanlarında qarşımıza çıxır. Ən kiçik hadisələrin təsvirində də, müəllifin kiçik və epizodik obrazlara münasibətində də, şahın, siyasi liderlərin, inqilab rəhbərlərinin bədii portretlərində də, məhkəmə, döyüş, mitinq səhnələrində də əsərin alt qatına hopmuş müstəqillik, azadlıq, ən əsası da azərbaycançılıq, milli birlik hissi duyulur.

Üçüncü fəslin ikinci paraqrafı "Söhrab Tahirin romanlarında tarixi şəxsiyyət və milli xarakter problemi" adlanır. Bu paraqrafda Söhrab Tahirin romanlarında milli xarakterlər

---

[24] Tahir, S.Ə. Əmanət. Povestlər / S.Ə.Tahir. – Bakı: Gənclik, – 1981. – 424 s.

yaratması, tarixi şəxslərin obrazını canlandırması və şahlıq rejiminin ifşası araşdırılmışdır. Belə ki, "İki dəfə yox olmuş adam" romanında yazıçı qəhrəmanların inqilabi fəaliyyətini qələmə alır, inqilabdan sonrakı hürr həyat arzularını dilə gətirir. İlk baxışdan utopik təsvirə əsaslanan 1945-ci ildə baş vermiş bu inqilabdan sonra qəhrəmanlar öz xəyallarında qurduqları müstəqil Azərbaycana qovuşmuş olurlar. "İki dəfə yox olmuş" adam romanında da S.Tahir Pişəvəri obrazının təsvirində real olanlarla, yazıçı təxəyyülünü birləşdirir. Bu romanda yüksək insani keyfiyyətlərlə təsvir olunan Mir Cəfər Pişəvəri Söhrab Tahirin növbəti romanının baş qəhrəmanı kimi qarşımıza çıxır. Bu "Sevgisində itən qız" romanıdır.

Bu tarixi romanda Azərbaycan Demokrat Firqəsinin sədri və 1945-1946-cı illərdə Azərbaycan Milli Hökumətinin sədri olmuş Seyid Cəfər Pişəvərinin həyatı, fəaliyyəti, azadlıq uğrunda şahlıq rejiminə, istibdada qarşı mübarizə və mücadiləsi təsvir edilmişdir. "Sevgisində itən qız" romanında kişi gizli adı ilə daha bir tarixi şəxs Mir Cəfər Bağırovun Pişəvəri inqilabında və hökumətindəki rolu işıqlandırılmışdır.

Yazıçı bu romanda inqilabçı xarakteri ilə yanaşı şahlıq rejiminin insanlıqdan çıxmış xain, satqın, zalım obrazlarını da yaratmışdır. Eyni vəziyyət "Qonşu qızın məktubları" romandan da aydın olur. Şah bir tərəfdən xalqı aldatmaq üçün bəzi islahatlar keçirir, digər tərəfdən bu islahatların mahiyyətini anlayan ziyalıları, gəncləri əl-qol açmağa, etiraz etməyə qoymur.

"Sonuncu şah" romanında əvvəldən sonadək tarixi şəxslərin rolu, xarakterlərindəki təzadlar, eşq macəraları və s. işlənmişdir. Buna paralel olaraq əsərdə azadlıq eşqilə çırpınan qəhrəmanların başına gələn faciələrdən, qələbələrdən və məğlubiyyətlərdən, yarım əsrlik tarixi dövrdə qazanılmış uğur və itirilmiş talelərdən bəhs olunur. Pəhləvi rejiminin əvvəldən Azərbaycana düşmən münasibəti "Sonuncu şah" romanında Məhəmmədrza şahın anasının dilindən oğluna verdiyi öyüddə də özünü göstərir: "*Məscidlərin qabağında, yoxsul məhəllələrdə nəzir qoyun kəsdir, qoy Allah sənin günahlarını bağışlasın. Allah atan Rzanı da bağışlasın, bu xalqın başına nə oyunlar açdı. Azərbaycanı odlara*

*qaladız, minlərcə günahsız adamın qanına bais oldunuz. Ancaq nəzirlə, nəzir-niyazla, məscidlərdə üzüqoylu düşüb Allaha yalvarmaqla günahını azalda bilərsən"*[25].

Romanının əsas mənfi qəhrəmanı, heç şübhəsiz, Məhəmmədrza şah Pəhləvidir. 1941-1979-cu illər arasında İranın şahı olmuş Məhəmmədrza obrazını Söhrab Tahir tarixi faktlara sadiq qalaraq yaratmaq istəmişdir. Ancaq bədii əsərin öz qaydası, poetik arxitektonikası vardır və yazıçı istər istəməz tarixi şahın həm də bədii obrazını yaratmışdır. Despot, öz xalqına, xüsusən də Azərbaycan türklərinə qarşı amansız olan Məhəmmədrza gah rəhmdil, gah sevən, gah dostluğa sadiq, gah şahlıqdan bezən, gah ingilislərin, amerikalıların oyunundan təngə gələn, gah Allaha yalvaran, sonra da için-için ağlayan, gah da hər şeyi məhv etməklə intiqam almaq istəyən mürəkkəb xarakterli bir obrazdır.

Milli xarakterli obrazlar, tarixi şəxslərin bədii surətləri, tarixi hadisələrin epik təsvirində reallığa sadiq qalmaq, hürriyyət, milli birlik düşüncəsinin bədii həlli, monarxiya rejiminin ifşası, azadlıq əsgərinin xarakterik obrazını yaratmaq müəllifin nəsr əsərlərinin əsas məziyyətidir.

**Nəticə** hissəsində qeyd olunur ki, XX əsr Azərbaycan poeziyasının və o cümlədən nəsrinin özünəməxsus xüsusiyyətlətini əks etdirməyə nail olan Söhrab Tahirin yaradıcılığının araşdırılması ədəbiyyatşünaslıqda bir çox elmi qənaətləriə gəlməyə imkan yaratdı. Bu baxımdan aşağıda qeyd olunanlar əldə olunmuş nəticələr olaraq dəyərləndirilə bilər:

1. Araşdırmadan belə nəticəyə gəlinmişdir ki, Söhrab Tahirin yaradıcılığında Cənub mövzusu digər şair və yazıçılardan (məsələn, Süleyman Rüstəm, Cabir Novruz, Məmməd Araz, Mədinə Gülgün, Mirzə İbrahimov və b.) fərqli aspektdə işlənmişdir. Cənubi Azərbaycan əsilli şairin yaradıcılığında digər sənətkarlardan fərqli olaraq həsrət, kədər, nisgil motivləri üstünlük təşkil etmişdir;

[25] Tahir, S.Ə. Əsərləri: Sonuncu şah: roman: [19 cilddə] / S.Ə.Tahir. – Bakı: Şur, – c. 11. – 2011. – s. 211.

2. Cənub mövzusu ilə yanaşı S.Tahir ədəbiyyata milli azadlıq, milli birlik və bütöv Azərbaycan ideyasını gətirmişdir. Şairin yaradıcılığında onların hər biri ayrıca mövzu olaraq dəyərləndirilə bilər. Onun milli istiqlal ideologiyası, Azərbaycanın birləşməsi fikri siyasi və ideoloji baxımdan ədəbi hərəkat səviyyəsində öz əksini tapmışdır;

3. Söhrab Tahir Cənubu bütün acıları, dərdləri və fəlakətləri ilə yanaşı həm də onun təbiətini metaforik şəkildə ideallaşdırmış, yüksək poetik pafosla səmimiyyətlə təcəssüm etdirmişdir. Ona görə də şairin nəzərində Təbriz inqilablar beşiyi, Ərdəbil tarixin qan yaddaşı, Savalan ucalıq, əzəmət, Culfa, Astara, Mərənd və nəhayət, Araz ayrılıq, həsrət simvoludur. O, Gəncədən, Lənkərandan, Bakıdan yazanda da bir qanadının qırıq olduğunu, bir tərəfinin əskik olduğunu bildirmiş, ayrı düşdüyü torpağı hər zaman xatırlamış, xatırlatmışdır;

4. Söhrab Tahirin poeziyasınında "vətən" anlayışı onu qorumaq motivi ilə səsləşir; azadlıq cihadına, birlik savaşına çağırış motivləri mövzunun əsas qayəsini təşkil edir. S.Tahir povest və romanlarında ən ağır işgəncələrə, təhqirlərə məruz qalan vətən övladının sonuna qədər azadlıq hayqırışının da bu düşüncəyə dayandığını təsirli bir dillə təhkiyə etmişdir. Poema və romanlarında əqidəsindən dönməyən, çəkdiyi bütün əzablara, acılara qarşı, uğrunda öldüyü amala son nəfəsinə qədər sadiq qalan mücahidlərin mübarizəsini Söhrab Tahir romantik, şairanə bir üslubda təcəssümünə nail olmuşdur;

5. Seyid Cəfər Pişəvəri, Məhəmmədrza Şah kimi tarixi şəxsiyyətlərin fəaliyyətindən bəhs edən romanlarının tədqiqi zamanı sənətkarın dövrün ictimai-siyasi hadisələrinin dəqiq ifadəsini retrospektiv prinsiplə əks olunması üzə çıxarılmışdır. Söhrab Tahir Azərbaycanda baş verən azadlıq hərakatının qanlı şəkildə yatızdırılması və buna baxmayaraq xalqın təfəkküründə azadlıq ideyasının daha da güclənməsi yaratdığı təsirlərin obrazlı təcəssümünə nail olmuşdur;

6. Söhrab Tahirin həm tarixi hadisələrə, həm də Azərbaycan Məşrutə İnqilabından sonra baş verən milli azadlıq mübarizəsinə həsr olunmuş povest və romanlarında paradoksal

münasibət ortaya çıxarılmışdır. İran nefti uğrundan sosialist cəbhəsi ilə kapitalist-imperialist cəbhəsi arasında gedən bu soyuq müharibədə arada qalan Azərbaycan xalqının çəkdiyi maddi-mənəvi acılar, puç olan inamlar onun nəsr əsərlərinin əsas kontekstini təşkil edir;

7. Həm şeir və poemalarında, həm də povest və romanlarında Söhrab Tahir azadlığı, milliliyi fərd və cəmiyyətin fövqünə qaldırır. Onun əsərlərinin ən böyük məziyyəti də məhz elə buradadır.

Aparılan təhlillər əsasında qeyd etmək olar ki, yaradıcılığının əsas hissəsinin Cənub mövzusu təşkil edən Söhrab Tahirin əsərlərində gözəlliyin, təbiətin, sevginin tərənnümü azadlıq, ayrılıq, kədər, ölüm motivləri ilə çulğalaşaraq yeni semantik xüsusiyyətlər kəsb etmişdir.

Düşüncələri, fikirləri ilə bir ideya uğrunda – Cənub mövzusu daxilində özünüdərk, milli oyanış məqsədi ilə yazıb yaradan Söhrab Tahir Azərbaycan ədəbiyyatında öz orijinallığı ilə yeni istiqamət müəyyənləşdirməyə nail olmuşdur.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**

1. XX əsrin 60-cı illərində müasir roman tendendiyası // “Filologiyanın aktual problemləri” mövzusunda respublika elmi-nəzəri konfrans, – Bakı: Azərbaycan Universiteti nəşriyyatı, – 17-18 may, – 2017, – s. 57-60.
2. Söhrab Tahirin Romanlarında Savaş və İstiqlaliyyət (“Sevgisindən itən qızın Taleyi” romanı əsasında) // – Bakı: Əlyazmalar yanmır, – 2017. №2 (5), – s. 61-65.
3. Söhrab Tahir. İki dəfə yox olmuş adam // – Bakı: Filologiya məsələləri, – 2017. № 20, – s. 381-388.
4. XX əsrin II yarısında Azərbaycanda ədəbi proses və Söhrab Tahirin yaradıcılığı // – Türkiyə: Akademik Tarih və Düşüncə Dərgisi, – 2018. №5 (18), – s. 512-532.
5. Söhrab Tahir poeziyasında döyüşən şeirlər // – Bakı: Elmi əsərlər, – 2018. №2, – s. 33-37.
6. Идея Национальной Свободы в Прозе Сохраб Тахира // – Ужгород: Закарпатский филологический студии, – 2018. №5, – с.133-137.
7. Bölünmüş vətənin bölünməz şairi // – İnternational Conference on Sustanable Development and Actual Problems of Humanitarian sciences, – Bakı: – 14-15 may, – 2018, – s. 359-361.
8. Milli xarakterin təcəssümü baxımından Söhrab Tahir romanlarında şahlıq rejiminin ifşası // – Bakı: Filologiya məsələləri, – 2020. №7, – s. 280-297.
9. Söhrab Tahir yaradıcılığında cənub mövzusu // – Bakı: Elmi əsərlər, – 2020. №1, – s. 100-104.
10. Söhrab Tahirin nəsr yaradıcılığında hüriyyət və milli birlik ideyası // The XIII international scientific symposium “Science and edecation: preserving the past, creating the future”, – Türkiyə: –24 aprel, – 2021, – s.81-84.

Dissertasiyanın müdafiəsi 26 yanvar 2024-cü il tarixində saat 14:00-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001. Bakı şəh., İstiqlaliyyət küçəsi 53.
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 dekabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.12.2023

Kağızın formatı: A5

Həcm: 36465

Tiraj: 100